**AUDİT 2023, 1 (39), səh. 22-29.**
**AUDIT 2023, 1 (39), pp. 22-29.**
**АУДИТ 2023, 1(39), стр. 22-29.**

**DOI: 10.59610/bbu1.2023.22-29**

*Abbasov Sərvər Alıcan oğlu,*
*iqtisad elmləri doktoru, professor,*
*Bakı Dövlət Universiteti,*
*E-mail: server.abbasov@gmail.com*
*© Abbasov S.A., 2023*

**UOT – 342.51**

# HEYDƏR ƏLİYEV AZƏRBAYCAN DÖVLƏTÇİLİYİNİN RƏMZİ KİMİ

## X Ü L A S Ə

Ölkədə fəaliyyət göstərən siyasi və iqtisadi sistem əsl Böyük Şəxsiyyətin, Qüdrətli Lider Heydər Əliyevin əməyinin bəhrəsidir. Məqalədə genişşaxəli və uzunmüddətli titanik fəaliyyətinin bütün dövrlərində, o cümlədən ilkin dövrlərdə belə Heydər Əliyevdə böyük dövlətçilik bacarığının tam xüsusiyyətləri əhatəli tərzdə əksini tapmışdır.

**Açar sözlər** : dövlətçilik, xalq, humanist siyasət, demokratiya, müstəqillik.

## G İ R İ Ş

Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və genişdiapozonlu irsi isə xalgımızın milli sərvətidir. Bu müqəddəs mirası qoyurub saxlamaq hər bir Azərbaycan vətəndaşının sərəfli vəzifəsidir.

Onun haqqında çıxış etmək, materiallar, kitablar yazmaq çox məsuliyyətli, eyni zamanda şərəfli bir missiyadır.

Heydər Əliyev: "Həyatımda mən 3 şeyə arxalanmışam - yaradanıma, xalqıma və zəhmətimə".

İlham Əliyev: "Bu gün Heydər Əliyevin adı bölgədə və dünyada layiqli mövqe qazanmış Azərbaycan dövlətinin rəmzi kimi səslənir".

Heydər Əliyev Ümumbəşəri Liderdir. Bunu dünyanın bir sıra görkəmli dövlət, siyasi-ictimai xadimlər də etiraf edirlər ki, Heydər Əliyev dünya prezidentlərinin patriarxıdır. Qüdrətli öndərsiz bir millət heç nəyə nail ola bilməz, Heydər Əliyev Atatürk qədər qüdrətli bir türkdür. Heydər Əliyev min ildən bir yetişən dahilərdəndir.

Heydər Əliyev Azərbaycanı nəinki sağaltdı, dirçəltdi. O yeni müstəvidə Azərbaycan dövlətini, dövlətçiliyini yaratdı, möhkəmləndirdi.

Heydər Əliyevin bütün çoxşaxəli fəaliyyətini tədqiq etdikcə belə bir qənaətə gəlmək olar ki, o həmişə inqilablar vasitəsilə islahat yox, islahatlar vasitəsilə inqilablar yaratmışdır. O gücün siyasətinə siyasətin gücünü qoyurdu. Onun gücü dövlətçilikdə idi. "Xalq mənim dayağım, gücüm, inamımdır".

Bütün fəaliyyəti, o dövrdə gördüyü işlərlə Azərbaycanın gələcəyini, bugünkü müstəqilliyini düşünürdü.

"Dövlətçilik hər bir şəxsin qəlbində olmalıdır. Xalqın, Vətənin taleyi hər bir insanın taleyinə çevrilməlidir".

"Müstəqilliyi elan etmək, onun qorunması və möhkəmlənməsi istiqamətində dövlət tədbirləri həyata keçirmək nə qədər vacib olsa da, əsl müstəqilliyi qazanmaq üçün bu hələ azdır.

AUDİT 2023, 1 (39), səh. 22-29.
AUDIT 2023, 1 (39), pp. 22-29.
АУДИТ 2023, 1(39), стр. 22-29.

Gərək hər bir insan, xüsusən gənc nəsil müstəqilliyin nə qədər müqəddəs olduğunu bütün varlığı ilə dərk etsin, onu qorumaq və möhkəmləndirmək üçün hər cür qurban verməyə hazır olsun".

Müstəqil Azərbaycanın iqtisadi, sosial-mədəni təməli hələ ulu öndərimizin birinci hakimiyyəti dövründə (1969-1982-ci illərdə) qoyulub. Ölkəmizin müstəqilliyinin və dünya iqtisadiyyatına dərin inteqrasiyası proseslərinin hazırkı möhkəm təməli Heydər Əliyev tərəfindən həmin illərdə yaradılmış potensiala əsaslanır.

Bir neçə fakta müraciət edək. 1969-cu ildə Azərbaycan müttəfiq respublikaların sıralarında bütün sosial-iqtisadi göstəricilərə görə geridə qalan respublika idi.

**Tədqiqatın əsas məzmunu**

Azərbaycanın iqtisadiyyatına sovet dövründə 50 il ərzində 14 mlrd.rubl vəsait ayrıldığı halda, 1969-82-ci illərdə bu rəqəm 32 mlrd.rubl təşkil etmişdir. Həmin illərdə milli gəlir 2.6 dəfə artmış, 250-dən çox zavod, fabrik, istehsalat sahələri, qəsəbələr, mikrorayonlar, metro stansiyaları tikilib istifadəyə verilmişdir. Azərbaycanda istehsal olunan 350 adda məhsul dünyanın 65-dən çox ölkəsinə ixrac olunurdu. Heydər Əliyevin rəhbərliyi dövründə iqtisadi sahələrin tənzimlənməsi ilə bağlı 70-dən artıq qanun qəbul edilmiş, 100-dən çox fərman və sərəncam imzalanmış, 30-a yaxın dövlət proqramları təsdiq edilmişdir. Heydər Əliyevin ən böyük xidmətlərindən biri də gələcək müstəqil Azərbaycanın bütün sahələri üçün yüksək səviyyəli milli kadrlarla, mütəxəssislər ilə təmin edilməsi idi.

70-80-ci illərdə onun təşəbbüsü və qayğısı sayəsində hər il 800-900 azərbaycanlı gənc təhsil almaq üçün SSRİ-nin ən qabaqcıl ali təhsil müəssisələrinə göndərilirdi. Müqayisə üçün 1969-cu ilə qədər 34 nəfər təşkil edirdi.

Ümumilikdə 1969-82-ci illər ərzində keçmiş SSRİ-nin 50-dən artıq böyük şəhərinin (o cümlədən Moskva, Leninqrad) 170-dən çox ən nüfuzlu ali məktəblərində 80-dən artıq sahəsini əhatə edən və ən zəruri ehtiyac duyulan 250- dən çox ixtisas üzrə 15 mindən artıq azərbaycanlı gənc ali təhsil almışdı. Həmin mütəxəssisləri Heydər Əliyev "Azərbaycanın milli sərvəti" kimi qiymətləndirmişdir. Təhsildə islahatlar inqilab yox, təkamül yolu ilə həyata keçirilməlidir. Təhsil-strateji, ən həssas sahədir. "Cəmiyyətin gələcəyi indi gənclərimizə nəyi və necə öyrətməyimizdən asılıdır".

Qanlı yanvar faciəsi ilə bağlı Heydər Əliyevin cəsarətli kəskin bəyanatı Azərbaycan tarixində yeni siyasi dövrün başlanması idi. Sokrat demişkən: "Tarix özü onun ifaçılarını tapır".

1993-cü ilin iyununda Azərbaycanın məhv olma təhlükəsi şəraitində yenə Heydər Əliyev xalqın yanında, xalqla birlikdə oldu. Heydər Əliyevin hakimiyyətə yenidən gəlişi ilə milli birliyin təmin edildiyi gün xalq özünün xilaskarı şərəfinə Azərbaycanın ən yeni tarixində Milli Qurtuluş günü kimi yazmışdır.

Demokratiya məsələsinə o çox həssaslıqla yanaşırdı. Demokratiyanı quran, onu qoruyub inkişaf etdirən də dövlətdir. Dövlətsiz demokratiya 3 halda mümkündür: ibtidai icma quruluşunda, utopik nəzəriyyələrdə və anarxislərin təfəkküründə.

Müstəqilliyimizin tarixinə nəzər saldıqda çox əhəmiyyətli bir inkişaf dialektikası ortaya çıxır: əvvəl dövlət, sonra möhlət, sonra isə sərvət.

"Demokratiyanı bir-iki gündə əldə etmək mümkün deyil. Demokratiya alma deyil ki, gedib bazardan alasan. Demokratiya insanların şüurunda dəyişiklik deməkdir. Bu dəyişiklik heç bir inqilabla olmur, təkamül yolu ilə tədricən gedir".

"Xalq dövlət üçün deyil, dövlət xalq üçün olmalıdır". Dövlətçiliyin möhkəm təməlini, müstəqilliyimizin iqtisadi bünövrəsini və Azərbaycanın bu gün analoqu olmayan templə inki-

AUDİT 2023, 1 (39), səh. 22-29.
AUDIT 2023, 1 (39), pp. 22-29.
АУДИТ 2023, 1(39), стр. 22-29.

şafına "Əsrin müqaviləsi" zəmin yaratmışdır. Yeni Konstitusiyanın qəbulu milli dövlətçilik tariximizdə yeni bir mərhələ açdı, dövlət quruculuğunda, ictimai-siyasi, iqtisadi, mədəni həyatımızdakı inkişafa güclü təkan verdi, xüsusilə də insan hüquqlarının və azadlıqlarının təmin edilməsində.

Dünyada çox az Konstitusiya tapılar ki, onların maddələrinin 1/3 hissəsi insan hüquqlarına və onların təminatına həsr edilsin (158 maddədən 48-i buna həsr olunub).

Azərbaycan Respublikası MDB və Şərqi Avropa ölkələri arasında KİV-in kəmiyyətinə görə lider mövqelərdən birini tutur. Azərbaycanda 5000-ə yaxın KİV müvafiq dövlət orqanında uçota götürülmüş və ya qeydiyyatdan keçmişdir. Ölkədə 40-a yaxın gündəlik, 200-dən artıq həftəlik və aylıq qəzet nəşr olunur. 80-dən artıq elmi-praktiki, ictimai-siyasi, sosial-iqtisadi məsələləri, uşaq və qadın problemlərini işıqlandıran jurnal çıxır. Bölgələrdə 100-ə yaxın qəzet və jurnal nəşr olunur.

Heydər Əliyevin ən böyük xidmətlərindən biri, bəlkə birincilərdən ondan ibarətdir ki, o Azərbaycan dövlətinin beynəlxalq aləmdə nüfuzunu, imicini yüksəklərə qaldırdı. Yalnız 2000-2003-cü illərdə Heydər Əliyev 1058 xarici səfərlər və görüşlər keçirmişdir. Dünya xəritəsində nöqtə boyda görünən dövlətimiz indi beynəlxalq aləmdə nüfuzlu söz sahibinə, qlobal layihələrin təşəbbüskarı və iştirakçısına çevrilib.

Böyük şəxsiyyətlərin, dahilərin öz məktəbləri olur. Bu məktəblər onların irsini davam etdirir, yaşadır.

Bu gün böyük iftixar hissi ilə qeyd etmək lazımdır ki, Heydər Əliyev kursunu, onun məktəbinin ən layiqli məzunu, siyasi varisi, qətiyyətli Lider Cənab İlham Əliyev uğurla, yeni müstəvidə, müasir tələblərə uyğun davam etdirir.

2003-cü ildən sonra da Azərbaycanın uğurlu inkişafı davam etmişdir. 2003-cü il bir sınaq ili idi. 2003-cü il Azərbaycan üçün, Azərbaycanın müasir tarixi üçün həlledici il olmuşdur. 2 oktyabr 2003-cü il Heydər Əliyevin Azərbaycan xalqına müraciətini sizin nəzərinizə çatdırmaq istərdim: "Üzümü sizə - həmvətənlərimə tutaraq qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də YAP bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin və xalqımızın firavanlığı yolunda çox işlər görəcəkdir. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

İlham Əliyev: "Hər hansı bir qərar qəbul etməzdən əvvəl düşünürəm ki, bu vəziyyətdə Heydər Əliyev necə hərəkət edərdi".

Heydər Əliyevin bizə qoyduğu sərvət müstəqil Azərbaycan dövləti və onun davamçısı İlham Əliyevdir.

İlham Əliyevin son 5 ildə fəaliyyəti:

1) xarici siyasət: Son 5 ildə İlham Əliyev 1184 səfər və görüşlər keçirmişdir;

Preventiv diplomatiyası, qabaqlayıcı siyasət. Azərbaycan 160 dövlətlə diplomatik əlaqə qurub, ölkəmizdə 57 səfirlik, konsulluq və beynəlxalq təşkilat nümayəndəliyi fəaliyyət göstərir. Xaricdə 62 diplomatik nümayəndəmiz, o cümlədən 47 səfirliyimiz var. Bunlardan 30-u son 5 ildə yaradılıb.

2) daxili siyasət; A) neft strategiyası: BTC, Bakı-Ərzurum, Bakı-Qars, İpək yolu, Bakı-

AUDİT 2023, 1 (39), səh. 22-29.
AUDIT 2023, 1 (39), pp. 22-29.
АУДИТ 2023, 1(39), стр. 22-29.

Supsa, Bakı-Novorosiysk, 3 neft kəməri, 4 qaz ixracı kəməri, TAP və TANAP.

B) iqtisadi siyasət: dövlət büdcəsi 25 dəfədən çox artmış (1.3 mlrd. dollardan 25 mlrd. dollara), 2023-cü ildə ölkədə ÜDM-nin real artımı 2,7 faiz 106 milyard manat olacaq. 2022-ci ildə geyri-neft sektorunun ÜDM –si 7,3 faiz artaraq 67,1 milyard manata , 2023-cü ildə isə 73,3 manata çatacaq. 2023-cü il dövlət büdcəsinin xərcləri 33 milyard 353,3 milyon manat nəzərdə tutulur ki, bu da əvvəlki ilin proqnozuna nisbətən 1 milyard 49,5 milyon manat və ya 3,2 faiz çoxdur. Bununla da dövlət büdcəsi xərclərinin ÜDM-də xüsusi çəkisi 31,5 faiz olacaq.

İlham Əliyev 15 akademiya və universitetin fəxri professoru, doktoru elmi adı ilə, 13 dövlətin və təşkilatın ali mükafatları ilə təltif edilib.

BMT XXI əsri – "Təhsil əsri" elan etmişdir.

Təhsil: 1 kq elm tutumlu məhsulun qiyməti 70 ton neftin qiymətinə bərabərdir. Dünya Bankının apardığı tədqiqatın nəticələri göstərir ki, ABŞ-ın milli sərvətinin 76%-ni insan kapitalı, 19%-ni istehsal, 5%-ni təbii resurslar təşkil edir. Avropa ölkələrində insan kapitalı 74%, istehsal 24%, təbii resurslar yalnız 2% təşkil edir. Rusiyada isə insan kapitalı 50%, istehsal 10%, təbii resurslar 40% səviyyəsindədir.

3000-dən çox məktəb tikilib, Prezident İlham Əliyev təhsillə bağlı 86 tədbirdə iştirak etmiş, 112-yə yaxın fərman və sərəncam imzalamış, Birinci Vitse-prezident Mehriban xanım Prezidentlə birlikdə olduğu tədbirlərdən əlavə təhsillə bağlı daha 30 tədbirdə iştirak etmişdir.

2023-cü il dövlət büdcəsində elm, təhsil, səhiyyə, sosial müdafiə və sosial təminat, mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət xərcləri üçün 11 milyard 535,6 milyon manat vəsait nəzərdə tutulub. Bu, 2022-ci illə müqayisədə 1 milyard 543,4 milyon manat və ya 15,4 faiz çoxdur.

Təhsil, səhiyyə, mədəniyyət, idman və s. sahələrdə bugünlərdə 15 illik yubileyini qeyd edəcək Heydər Əliyev Fondunun və onun Prezidenti Mehriban xanım Əliyevanın apardığı ardıcıl, məqsədyönlü fəaliyyəti danılmazdır. Bu fəaliyyət dünya, respublika ictimaiyyəti tərəfindən böyük rəğbətlə qarşılanır və yüksək qiymətləndirilir. Məhz fondun təşəbbüsü ilə reallaşdırılan "yeniləşən Azərbaycana yeni məktəb" və "uşaq evləri və internat məktəbləri" proqramları çərçivəsində 43770 şagird yerlik 300-dən çox yeni məktəb tikilmişdir. 39 məktəb, o cümlədən xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün 28 internat məktəbi əsaslı təmir olunub, müasir avadanlıqlarla təmin edilmiş, 8 uşaq bağçasında bərpa işləri aparılmışdır.

Humanizm: dünyanın heç bir ölkəsində 5 ildə 1 əfv fərmanının imzalanması faktına rast gəlinməmişdir.

İdman: Son illər ərzində 40 idman kompleksi istismara verilmişdir, növbəti illərdə 20-dən çox olimpiya kompleksi tikiləcəkdir.

ABŞ-ın nüfuzlu konqresmeni Kurt Ueldon Prezidentimizin fəaliyyətini dəyərləndirərək qeyd edir ki, "Bir çox xalqlar arzulayırlar ki, onların da Cənab İlham Əliyev kimi bacarıqlı, 5 dildə danışa bilən, müxtəlif mövzulara dair geniş bilgilərə malik, geniş dünyagörüşlü lideri olsun".

Müasir Azərbaycan XX əsrin yetmişinci illərindən etibarən Heydər Əliyev tərəfindən yazılan möhtəşəm əsərə bənzəyir. Onun inkişafının hər bir səhifəsində bu Böyük İnsanın "xətti", izi aydın görünür. Bu gün Azərbaycanın elə bir güşəsi tapılmaz ki, orada Heydər Əliyev tərəfindən yaradılan abidəyə rast gəlməyəsən. Bu abidələr yeni kəndlər və qəsəbələr, fabrik və zavodlar, emal müəssisələri, yollar və körpülər, ictimai-mədəni binalardır.

Dövlətimizin tarixində o, iki dəfə siyasətdə və dövlət idarəçiliyində səviyyəsizliyə və bəsitliyə qətiyyətlə son qoya bilmişdir. O, azərbaycanlıların necə güclü iradəyə və ruha malik

**AUDİT 2023, 1 (39), səh. 22-29.**
**AUDIT 2023, 1 (39), pp. 22-29.**
**АУДИТ 2023, 1(39), стр. 22-29.**

olduqlarını, onun xalqının necə böyük enerji potensialına və intellektual potensiala sahib olduğunu öz timsalında bütün dünyaya nümayiş etdirmişdir.

Franklin Ruzvelt, Uinston Çorçill, Şarl de Qoll kimi Heydər Əliyev hələ sağlığında canlı əfsanəyə çevrilmişdir.

Çoxşaxəli və uzunmüddətli titanik fəaliyyətinin bütün dövrlərində, hətta ilkin vaxtlarda belə Heydər Əliyevdə böyük dövlətçilik bacarığının bütün xüsusiyyətləri hərtərəfli əks olunmuşdur. Bunların içərisində onun hadisələri, biz deyərdik ki, zamanı qabaqlamaq duyumunu, saysız-hesabsız mümkün variantlar içərisində yeganə düzgününü seçmək istedadını xüsusi qeyd etmək lazımdır.

1982-ci ildə SSRİ kimi nəhəng dövlətin daxili və xarici siyasətini hazırlayan və yerinə yetirilməsi üçün cavabdeh olan çox az ilkin şəxslərdən birinə çevrilən Heydər Əliyev prinsipiallığı, iti və analitik ağlı ilə tez bir zamanda aparıcı yer tutdu.

İttifaq miqyasında fəaliyyət göstərən 19 nazirliyə rəhbərlik etmək, onların işini istiqamətləndirmək əsl hünər tələb edirdi. Moskva dövrü Heydər Əliyevin böyük bir şəxsiyyət, dünya miqyaslı siyasətçi kimi təsdiq dövrü oldu.

1990-cı ilin 20 yanvar qırğınlarından sonra Azərbaycanın haqq işi yolunda səsini bütün dünyaya yayan Heydər Əliyev yenidən böyük siyasətə qayıdışın əsasını qoydu. Bu hadisədən sonra Heydər Əliyevin Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda bir şəxsiyyət kimi mübarizəsi başladı.

1993-cü ilin iyununda Azərbaycan xalqı müstəqilliyə qovuşmuş dövlətin idarə olunmasını Heydər Əliyevə etibar etdikdə, bu dövlətin taleyi Tanrının ümidinə qalmışdı. Ölkədə hakimiyyətsizlik, qarma-qarışıqlıq və hərc-mərclik baş alıb gedirdi. Heydər Əliyev heyrətamiz iradə və məqsədyönlülüklə Azərbaycanı bir dövlət kimi məhv olaraq dünya xəritəsindən silinməkdən, xalqı miskin və ümidsiz vəziyyətdən, iqtisadiyyatı dərin böhrandan, ölkəni informasiya blokadasından, anarxiya və özbaşınalıq burulğanından, yeni ərazilərin işğalından xilas etdi. Bu, adi qurtuluş, sadəcə xilasetmə deyildi. Bu, Azərbaycanın müstəqilliyinin qorunması və əbədiliyə çevrilməsi, dönüş və yüksəlişin təməlinin qoyulması demək idi.

1994-cü ilin oktyabr və 1995-ci ilin mart hadisələri, dövlətə qarşı yönəldilmiş qəsdlərin dəf olunması Heydər Əliyevin dövlətçilik dühasının, incə və düşünülmüş siyasətinin parlaq nümunəsi oldu. Dövlətçiliyin inkişafı üçün geniş imkanlar açıldı.

Daxili sabitlik ölkədə iqtisadiyyatın tənəzzülünün qarşısının alınmasına, pozulmuş maliyyə-kredit sisteminin bərpa edilməsinə, insanların sosial-rifah halının yaxşılaşdırılmasına şərait yaratdı, inflyasiyanın qarşısı alındı, geniş islahatlar proqramları işlənib hazırlandı və həyata keçirildi.

1994-cü ilin sentyabrında 11 transmilli neft şirkətlərin iştirakı ilə imzalanmış "Əsrin müqaviləsi" təkcə neft sənayesində deyil, bütövlükdə Azərbaycan iqtisadiyyatının dirçəldilməsində mühüm mərhələnin bünövrəsi qoyuldu. Bununla Azərbaycan MDB məkanında Qərbin iri neft şirkətləri ilə irimiqyaslı saziş imzalayan ilk dövlət olmaqla, Xəzər dənizində beynəlxalq əməkdaşlığın bünövrəsini qoymuş oldu.

Yeni neft strategiyasının uğurları Azərbaycanın Avroatlantik məkanına inteqrasiya prosesini sürətləndirmiş respublikamıza sərmayə qoyulması sahəsində ciddi dönüş yaratmışdır. İndiyədək 33 xarici şirkətlə imzalanmış 27 neft-qaz müqaviləsi ölkə iqtisadiyyatının digər sahələrinin, habelə sosial infrastruktur obyektlərinin inkişafına əsaslı təkan vermişdir. Bütün müqavilələr üzrə Azərbaycanın neft-qaz sənayesinə yönəldiləcək xarici sərmayənin həcmi isə təqribən 60 mlrd. dollar təşkil etməlidir. Dünyanın aparıcı dövlətlərinin Azərbaycanın dövlət

**AUDİT 2023, 1 (39), səh. 22-29.**
**AUDIT 2023, 1 (39), pp. 22-29.**
**АУДИТ 2023, 1(39), стр. 22-29.**

başçısının apardığı tarazlı siyasətdən doğan inamı ildən-ilə daha da möhkəmləndi.

Qısa müddət ərzində, 1995-2003-cü illərdə orta illik inflyasiya 2-2,2 faizə düşmüşdür, ölkənin strateji ehtiyatları 74 dəfə artaraq, 1,4 milyard dollara çatmışdır. Ümumdaxili məhsulun (ÜDM) həcmi 1995-ci illə müqayisədə 3,3 dəfə artmışdır. Heydər Əliyevin zəngin fəaliyyəti nəticəsində ölkəmiz demokratiya yoluna qədəm qoymuş, Vətəndaş cəmiyyətin quruculuğunu uğurla həyata keçirir. Hazırda Respublikada 42 siyasi partiya, 1350 qeyri-hökumət, o cümlədən 30-a yaxın hüquq müdafiə təşkilatı, 500-dən artıq kütləvi informasiya vasitəsi qeydə alınmışdır.

Heydər Əliyevin apardığı humanist siyasət nəticəsində 1995-ci il may ayından əfv və amnistiya təsisatları bərpa edilmişdir. Qeyd etmək lazımdır ki, 1996-2002-ci illər ərzində 6 amnistiya aktı qəbul edilmişdir. Bu müddət ərzində amnistiya aktları 63477 şəxsə tətbiq edilmişdir.

O, Azərbaycanı təcrid vəziyyətindən çıxartdı və onun dünya birliyində özünəməxsus yer tutmasına şərait yaratdı, xalqımızı dünyanın aparıcı dövlətləri, beynəlxalq birliklərdə layiqli təmsil etdi, dünya birliyində Azərbaycana, onun haqq işinə inam yaratdı, Qarabağ problemi, onun həlli məsələləri, Azərbaycanın haqq işi beynəlxalq təşkilatların nəzərinə çatdırıldı. Azərbaycan 139 ölkə ilə diplomatik əlaqə qurmuşdur.

Heydər Əliyevin dövlətçilik fəaliyyətində Azərbaycan elminin, təhsilinin, mədəniyyətinin, zəngin irsinin öyrənilməsi və inkişaf etdirilməsi gənc nəslə, bütövlükdə istedadlara qayğı həmişə xüsusi yer tutmuşdur.

13 iyun 2000-ci ildə Azərbaycan Respublikasının təhsil sisteminin təkmilləşdirilməsi, dövlət dili haqqında Heydər Əliyevin imzaladığı fərmanlar təhsilin məzmununun təkmilləşdirilməsinə, təlim-tərbiyənin gücləndirilməsinə, təhsildə milli-mənəvi dəyərlərin nəzərə alınmasına imkan yaratdı.

## YEKUN

Bu gün Ümummilli Liderimiz Heydər Əliyevin qoyduğu zəngin irs, dövlətçilik ənənələri yaşayır, müstəqil Azərbaycanımızın bu gününə və gələcəyinə xidmət edir. Ulu öndərin siyasi və iqtisadi kursunu uğurla davam etdirən Prezidentimiz Cənab İlham Əliyev həyata keçirdiyi məqsədyönlü tədbirlər, onun qəbul etdiyi mühüm dövlət sənədləri Azərbaycanı inamla xoşbəxt gələcəyə doğru aparır.

Ölkəmiz çox böyük uğurlara imza atıb. Yalnız bu ilin birinci rübündə ümumi daxili məhsulun 39,5%, sənayenin isə 48 % artması, son iki il yarım ərzində 380 min yeni iş yeri açılması, regionların sürətlə inkişafı Azərbaycanın davamlı tərəqqisinin əyani sübutudur. 2006-cı ilin I yarısında ölkəmiz 135 xarici dövlətlə 8 mlrd. 547 milyon dollarlıq idxal-ixrac əməliyyatları aparmışdır.

“Azərbaycanın hər bir bölgəsi mənim üçün doğmadır” deyən dövlət başçımız regionların inkişafına xüsusi diqqət və qayğı göstərir.

Cənab İlham Əliyevin “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı” (2004-2008-ci illər) Dövlət Proqramı uğurla icra edilir, dinamik inkişaf və tərəqqi göz qabağındadır. Dövlət Proqramında nəzərdə tutulan sosial-iqtisadi tədbirlər nəinki cari ili, hətta gələcək illəri də qabaqlayır.

“Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”, həmçinin mövcud reallıqlar və çağırışlar nəzərə alınmaqla, 2023-cü il üzrə xərc siyasəti əsasən aşağıdakı istiqamətlər üzrə prioritetləşdirilib:

**AUDİT 2023, 1 (39), səh. 22-29.**
**AUDIT 2023, 1 (39), pp. 22-29.**
**АУДИТ 2023, 1(39), стр. 22-29.**

- ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi, o cümlədən ölkə sərhədlərinin bərpası və toxunulmazlığının təmin edilməsi, ordunun maddi-texniki təchizatının müasirləşdirilməsi, ərazilərin minalardan təmizlənməsi, hərbçilərin sosial təminatının və xidmət şəraitinin yaxşılaşdırılması;
- işğaldan azad edilmiş ərazilər üzrə bərpa və yenidənqurma işlərinin, böyük qayıdış planının təmin etdirilməsi, əhalinin dayanıqlı məskunlaşması üçün "ağıllı şəhər və ağıllı kənd" konsepsiyaları əsasında yaşayış və qeyri-yaşayış infrastrukturunun tikintisi, mərhələlərlə həmin ərazilərdə dövlət qurumlarının fəaliyyətinin təşkili və məşğulluqda bu ərazilərin payının artırılması;
- iqtisadiyyata dövlət büdcəsindən birbaşa və dolayısı ilə dövlət öhdəlikləri, dövlət sifarişi, subsidiya, subvensiya, dotasiya və qrant formasında maliyyə dəstəyinin davam etdirilməsi;
- müdafiə olunan xərclərin, o cümlədən əməyin ödənişi, təqaüd və pensiyalar, başqa sosial müavinətlər, dövlət borcuna xidmətlə bağlı xərclərin maliyyə təminatı;
- şəhid ailələrinin, müharibə veteranlarının mənzil ehtiyaclarının qarşılanması;
- dövlət sifarişilə ali təhsil alanların, təqaüd yerlərinin sayının artırılması və tələbə kreditinin maliyyə təminatı;
- yoluxucu xəstəliklərə qarşı mübarizə tədbirlərinin davam etdirilməsi;
- ölkənin ərzaq təhlükəsizliyinin etibarlı və dayanıqlı təminatı üçün büdcə resurslarının artırılması, aqrar sektorun stimullaşdırılması, kənd təsərrüfatının aparıcı sahələrinin inkişaf etdirilməsi;
- təhsil, elm, səhiyyə, sosial təminat, mədəniyyət və idman sahələri üzrə maddi texniki təminatın daha da artırılması və bu sahələr üzrə islahatların davam etdirilməsi;
- dövlət adından yaradılmış publik hüquqi şəxslər tərəfindən dövlət büdcəsinin vəsaiti hesabına dövlət sifarişilə iş və xidmətlərin maliyyə təminatı;
- əhalinin güzəştli mənzil eldə etməsi və kirayəyə götürülmüş yaşayış sahəsinə görə yaşayış yeri olmayan hərbi qulluqçulara pul kompensasiyasının ödənilməsi ilə bağlı maliyyə təminatı.

Bu gün rayon icra hakimiyyətinin, onun yerli strukturlarının iş üslub və metodları iqtisadi, sosial və mədəni məsələlərin həllində kompleks münasibət, daha çox elmi yanaşma, insan amili, onun qayğı və problemlərinə həssas münasibəti ilə xarakterizə olunur.

İllər keçəcək və çiçəklənən Azərbaycanın vətəndaşları bir gün deyəcəklər: Heydər Əliyev ölkəni idarə edir, onun ideyaları zamanın sınağından çıxmışdır və bu gün də insanların şüurunda və qəlbində yaşayır.

## İstifadə olunmuş ədəbiyyat siyahısı:

1. Azərbaycan Respublikasının milli iqtisadiyyat prespektivi üzrə Strateji Yol Xəritəsi. Bakı, 2016. 111 səh.
2. Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Perspektivlər. Azərbaycan Respublikası Prezidentinin 2 fevral 2021-ci il tarixli sərəncamı. Bakı, 2021. 101 səh.
3. Əliyev Heydər. "Müstəqilliyimiz əbədidir". Bakı, 1997. 608 səh.
4. Əliyev Heydər. "Müstəqilliyimiz əbədidir". Bakı, 1997. 488 səh.
5. Əliyev Heydər. "Müstəqilliyimiz əbədidir". Bakı, 1998. 520 səh.

**AUDİT 2023, 1 (39), səh. 22-29.**
**AUDIT 2023, 1 (39), pp. 22-29.**
**АУДИТ 2023, 1(39), стр. 22-29.**

*Sarvar Alijan Abbasov,*
*D.Sc. (Econ.), Professor,*
*Baku State University,*
*E-mail: server.abbasov@gmail.com*
*© S.A. Abbasov, 2023*

## HEYDAR ALIYEV AS A SYMBOL OF AZERBAIJANI STATEHOOD

### A B S T R A C T

The country's current political and economic structure is the result of the labor of a truly Great Personality, a Mighty Leader Heydar Aliyev. In the article, Heydar Aliyev's remarkable statesmanship abilities have been fully represented in all phases of his extensive and protracted titanic action, even in the early phases.

**Keywords:** statehood, people, humanist politics, democracy, independence.

*Аббасов Сарвар Алыджан оглы,*
*доктор экономических наук, профессор,*
*Бакинский Государственный Университет,*
*E-mail: server.abbasov@gmail.com*
*©Аббасов С.А., 2023*

## ГЕЙДАР АЛИЕВ КАК СИМВОЛ АЗЕРБАЙДЖАНСКОЙ ГОСУДАРСТВЕННОСТИ

### Р Е З Ю М Е

Действующая в стране политическая и экономическая система – плод работы настоящей Великой Личности, Могучего Лидера Гейдара Алиева. В статье всесторонне отражена полная характеристика великого государственного искусства Гейдара Алиева во все периоды его разноплановой и многолетней титанической деятельности, в том числе в начальные периоды.

**Ключевые слова:** государственность, народ, гуманистическая политика, демократия, независимость.

*Məqalə redaksiyaya daxil olmuşdur: 22.12.2022*
*Təkrar işləməyə göndərilmişdir: 29.12.2022*
*Çapa qəbul olunmuşdur: 09.01.2023*

*Дата поступления статьи в редакцию: 22.12.2022*
*Отправлено на повторную обработку: 29.12.2022*
*Принято к печати: 09.01.2023*

*The date of the admission of the article to the editorial office: 22.12.2022*
*Send for reprocessing: 29.12.2022*
*Accepted for publication: 09.01.2023*